## GÖRKƏMLİ ŞƏXSİYYƏTLƏRİN SÖHRAB TAHİR HAQQINDA SÖYLƏDİKLƏRİ

Söhrab Tahirin poeziyası milli dərdin və milli qeyrətin poeziyasıdır.

**Bəxtiyar Vahabzadə,**
**Xalq şairi**

Söhrab Tahir nadir şairdir, onun şeirləri dəhşətdir.

**M. Araz,**
**Xalq şairi**

O, sözün əsgəridir, mübarizə meydanında qələmlə vuruşan şairdir.

**Xəlil Rza Ulutürk,**
**Xalq şairi**

Söhrab Tahir təkcə bizim əmimiz deyil, həm də Azərbaycan şeirinin əmisidir.

**Cabir Novruz,**
**Xalq şairi**

Söhrab Tahir, sən dahisən, sən həm də Pişəvərinin varisisən.

**N. Həsənzadə,**
**Xalq şairi**

Söhrab Tahir publisistik düşüncəni poeziya ilə birləşdirə bilən sənətkarlardandır.

**Anar,**
**Xalq yazıçısı**

Onun yaradıcılığı ictimai mövqeyi və vətəndaşlıq ruhu ilə seçilir.

**Elçin,**
**Xalq yazıçısı**

19 roman yazıb, 50-dən artıq poema, 100-lərlə şeirin müəllifidir. Bundan əlavə 70 min misradan ibarət olan monimental "Ata" poemasının müəllifidir. Mən son görüşümüzdə ona dedim ki, "Ata" "Şahnamə"dən də böyükdür.

**Sabir Rüstəmxanlı,**
**Xalq şairi**

Söhrab əmi! Sənin yetmiş illik yaradıcılığını o taylı-bu taylı, mənən bölünməz Azərbaycanın bədii salnaməsi hesab etmək olar. Mərhum şairimiz Cabir Novruz yazırdı: Söhrab Tahirin amal-azadlıq eşqi onun yaradıcılığını mübarizə ilə silahlandırmışdır. Məhz buna görə də onun yaradıcılığı bir tərəfdən qəzəbli, bir tərəfdən kövrək, bir gözü ilə ağlayan, o biri gözü ilə gülən, bir sətrində vuruşa atılan, o biri sətrində fəryad qoparan, bir nəğməsində gələcəyə, inama, ümidə çağıran, o biri nəğməsində həsrət təşnəsi olan yaradıcılıqdır.

**Yusifli, Vaqif Əziz oğlu,**
**professor**

Yazıçı Seyran Səxavət: “Söhrab Tahir uzun illər böyük yaradıcılıqla məşğul olub. Azərbaycana böyük bir ədəbiyyat qoyub gedib. Onu tanıyan dostları, ailəsi, nəvələri üçün böyük itkidir. Onun Azərbaycana qoyub getdiyi bədii irs imkan vermir ki, deyək ağır itkidir, sadəcə onun özünə çox heyf. O, çox nəhəng bir söz adamı idi. Yenə deyirəm, təəssüf ki, Azərbaycan ədəbiyyatı belə bir nəhəngi itirdi”.

**Seyran Səxavət,**
**Şair**

Söhrab Tahirin şeirləri Azərbaycan poeziyasında bir mənəvi səngər qurdu.Bu səngərdə döyüşənlərin birinci vəzifəsi ürəklərdə, beyinlərdə hüriyyət adlanan bir səadətin- Hüseyn Cavid demişkən “qan tökülmədikcə üzə gülməyən bu nazlı afətin” məhəbbət toxumunu səpmək idi. Qəlbinin diktəsilə qələminə məhz bu istiqaməti nişan verərərək poeziyamızın sükanını məharətlə azadlığa, bu yolda çarpışmalara yönəldən Söhrab Tahir bütün bu illər ərzində öz istəyinə bir bəndlik də olsa, xəyanət etmədi.

**Flora Xəlilzadə,**
**Əməkdar jurnalist**

Söhrab Tahir öz şair ömrünü ümidin və dözümün ədəbiyyətə hesablanan heykəlinə, simvoluna çevirən nadir şəxsiyyətlərdəndir. Hər şeydən əvvəl qəlbinin vətən istəyiylə böyükdü. Hər şeydən əvvəl insanlara və cəmiyyətə, milli dəyərlərə dönməz münasibətilə böyükdü. Bəzən adamın heyifi gəlir ki, bu böyük şəxsiyyət, dəyərli şair özünün təbii dahi olmaq hissini, istəyini həyat və cəmiyyət qayğılarının ayağına vermək zorunda qalıb, kiminsə müşgül işinin yoluna qoyulmasına sərf edib – yəni həyatını insanca yaşayıb.

**Gülayə,**
**şairə**